# MURADOV RUSLAN HƏMİD OĞLU



Muradov Ruslan Həmid oğlu 27 iyun 1973-cü ildə Mingəçevir şəhərində doğulmuşdur. 1990-cı ildə Mingəçevir şəhər 10 saylı (indiki 15 saylı) orta məktəbi bitirmişdir. Vitebsk şəhərində ali məktəbə daxil olsa da, orada təhsilini davam etdirməmiş, doğma Mingəçevirə qayıtmışdır. Ruslan atasının işlədiyi Mingəçevir Texniki Rezin Məmulatı Zavodunda işə düzəlmişdir. O, 1992-ci ilin 22 yanvarında Milli Ordu sıralarına daxil oldu. Daxili qoşunlarda xidmət edirdi. Bir neçə ay hazırlıq keçdikdən sonra 1992-ci il aprelin 14-də Ağdamın Papravənd kəndinə göndərildi. Kəşfiyyatçı kimi R.Muradovun düşmən haqqında əldə etdiyi dəqiq məlumatları bir çox döyüşlərdə mühüm əhəmiyyət kəsb edirdi. Ruslanın xidmət etdiyi bölmə yerli özünümüdafiə batalyonunun əsgərləri ilə birlikdə keçirdiyi uğurlu əməliyyatlar nəticəsində tərk edilmiş kənd uğrunda gedən döyüşdə ermənilər geri çəkilməyə məcbur olmuşlar. 1992-ci ilin avqustunda düşmən ərazisində Azərbaycan silahlı qüvvələrinə məxsus bir təyyarə vurulmuşdu. Təyyarəçini xilas etmək üçün o, bir neçə yoldaşı ilə birlikdə keçirilən mühasirəyə düşmüşlər. İki gün davam edən ağır döyüşlər nəticəsində mühasirəni yara bilmişlər. Ruslan Muradov 1992-ci il avqustun 22-də Ağdam rayonunun Gülyataq kəndinin azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Mingəçevir şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə Muradov Ruslan Həmid oğluna ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. 1996-cı ildən Mingəçevir şəhərindəki Texniki Humanitar Lisey (keçmiş adıyla 15 saylı orta məktəb) qəhrəmanımızın adını daşıyır, burada büstü qoyulub.